

## İyunun 22-si Bülbülün doğum günüdür

# Azərbaycan klassik vokal məktəbinin banisi...

Əsl adı Murtuza Məmmədov olan olan Azərbaycan klassik vokal sənətinin banisi - Bülbülün doğum günüdür. Bülbül opera müğənnisi, təsniflərin mahir ifaçısı, musiqi folkloru tədqiqatçısı, professional vokal sənətinin banisi, SSRİ Xalq artisti və Stalin mükafatı laureatıdır. Məlahətli səs tembri, qeyri-adi, yumşaq oxu tərzi ilə xalq arasında sevildiyi üçün tez bir zamanda şöhrətin zirvəsinə ucala bilib. Elə Bülbül adını da xalq ona bu mənada verib. Murtuza Məmmədovun sənət fəaliyyətinə nəzər salanda, yaradıcılığının çoxşaxəli, səs imkanlarının genişliyinə şahid oluruq.

Bu gün Bülbülün anadan olmasından 128 il ötür. O, 1897-ci il iyunun 22-də Şuşa yaxınlığında, Xankəndinin cənub ərazisi olan Xanbağı adlanan yerdə anadan olub.

Səhnə fəaliyyətinə 1916-cı ildən başlayan Bülbül 1920-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti kimi çıxış edir. 1921-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında təhsil alan Bülbül həmin ali məktəbdə vokal üzrə ilk azərbaycanlı tələbə olur. İlk dəfə Üzeyir Hacıbəyovun “Leyli və Məcnun” operasında İbni Salam, “Əsli və Kərəm”də Kərəm, Z.Hacıbəyovun “Aşıq Qərib” operasında Qəribi oynayıb. Konservatoriyanı 1927-ci ildə bitirən Bülbül musiqi təhsilini davam etdirmək üçün dövlət xətti ilə İtaliyanın Milan şəhərinə gedir. Milanda təhsilini başa vurduqdan sonra 1931-ci ildə Vətənə geri dönür və Azərbaycan Dövlət Konservatoriyasında dərs deməyə başlayır. Onun təşəbbüsü ilə 1932-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Azərbaycan xalq musiqisini öyrənən Elmi-Tədqiqat Musiqi Kabineti yaradılır.

Bülbül yaradıcılığı olduqca genişdir. “Koroğlu” operasında oynadığı Koroğlu rolu onun yaradıcılığının zirvəsi hesab edilir. 1938-ci il aprelin 5-də Moskvada keçirilən Azərbaycan mədəniyyəti və incəsənəti ongünlüyü də “Koroğlu” operası ilə açılıb. Bülbülün Azərbaycan mədəniyyətində, musiqisində xidmətləri böyükdür. Adı Azərbaycan musiqi tarixinə həm də simfonik muğamların yaradılmasının təşəbbüskarı və iştirakçısı kimi yazılıb. Böyük bəstəkar Fikrət Əmirovun “Şur”, “Kürd-ovşarı” simfonik muğamları məhz Bülbülün təşəbbüsü ilə yaranıb. O, operalardakı rolları ilə yanaşı, romansların, xalq mahnılarının və təsniflərin də mahir ifaçısı olub. “Sənsiz”, “Sevgili canan”, “Ölkəm”, “Süsən sünbül”, “Xumar oldum” və digər mahnı və romanslar məhz Bülbülün ifasında əbədilik qazanıb.

O, 1931-ci ildə SSRİ xalq artisti, 1950-ci ildə SSRİ Dövlət Mükafatı laureatı, Azərbaycan SSR Ali Sovetinin deputatı, iki dəfə Lenin ordeni, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni, “Şərəf nişanı” ordeni, İtaliyanın Haribaldi ordeni ilə təltif edilib.



Bülbül üçün dünyanın ən gözəl, cənnət məkanı Şuşa idi. Doğulub böyüdüyü ev Şuşada ev-muzeyi kimi fəaliyyət göstərir. Birinci Qarabağ müharibəsi illərində Bülbülün Şuşadakı ev-muzeyi ermənilər tərəfindən dağıdılaraq anbar kimi istifadə edilmişdi. Şuşada olan heykəli erməni terrorçuları tərəfindən güllələnərək bərbad günə salınmışdı. İndi Bülbülün ruhu Şuşa torpağına qovuşaraq şaddır. Ev-muzeyi yenidən təmir-bərpa olunub. Bülbül yenə də canından çox sevdiyi Şuşadadır. Sonuncu dəfə 1961-ci ilin iyul ayında Şuşada konsert verən Bülbül sentyabr ayının 26-da Bakıda vəfat edir. Fəxri xiyabanda dəfn olunur.

*Yeganə BAYRAMOVA*